

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

30 dekabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 50 (3563)


# ZİRVƏDƏ QEYD OLUNAN YUBİLEY

## Cıdır düzündən düşmənə yeni mesaj və ənənəyə sadiqliyin sübutu



Dövlət başçımızın Cıdır düzündə, Hadrutda 60 illik yubileyinin qeyd edilməsi düşmənə yenidən gözdağı verdi.

Ötən müddətdə çox şey dəyişib. İndi İlham Əliyev ərazi bütövlüyünü bərpa etmiş qalib ölkənin Prezidentidir, onunla görüşən qarabağlılar isə artıq məcburi köçkün deyillər.

Dekabrın 24-də Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər zamanı orada yaradılan Komando Briqadasının açılışında iştirak ediblər.

İlham Əliyev hərbçilər qarşısında çıxışında yaratdığı qüdrətli, müzəffər ordunun gücündən, Vətən müharibəsində xalqımızın qətiyyətindən, Azərbaycanın daha da güclü dövlətə çevrilməsindən, Silahlı Qüvvələrimizin modernləşməsindən söz açıb. Bildirib ki, yeni açılan hərbi hissə digər ordu birlikləri kimi bundan sonra torpaqlarımızın müdafiəsində və mühafizəsində çox mühüm tapşırıqları yerinə yetirəcək.

Qalib komandan bir daha işğalçı Ermənistana mesajlar ünvanlayıb və bu dəfə daha sərt xəbərdarlıq edib: "44 günlük İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsinə gətirib çıxardı. Bu gün Ermənistan ordusu yoxdur. Əgər Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır. Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın. Ölkə hüdudlarından kənarda olsa da, əgər bu təhdidi biz görsək, heç kim bizi dayandıra bilməz. Necə ki, 44 gün ərzində nə qədər bizi dayandırmağa çalışdılar, nə qədər bizi hədələdilər, təzyiq etdilər, təhdid etdilər, heç kim bizi dayandıra bilmədi."

Yeni yaradılan Komando Briqadası haqqında da Prezident fikirlərini bölüşüb: "Müharibədən sonra müasir tələblərə cavab verən silah-sursat, texnikalar alınmaqla yanaşı, eyni zamanda, yeni silahlı birləşmələr də yaradılır. Hadrutda bu hərbi hissədə isə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşəcək. Komando Briqadasının yaradılması bizim üçün yenilikdir. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq. Bir daha demək istəyirəm ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaq".

İşğaldan azad olunduqdan sonra yeddinci dəfə Şuşaya səfər edən Prezident Cıdır düzündə xalqın mütləq əksəriyyətindən aldığı etimad mandatının 2003-cü ildən bəri ona güc verdiyini, iradəsini daha da möhkəmləndirdiyini vurğulayıb.

Məhz bu dəstək nəticəsində xalq onun ətrafında "dəmir yumruq" kimi birləşərək böyük tarixi uğurlara imza atıb. Prezident bu mətləblərə yenidən toxunub: "Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu".

Prezident İlham Əliyevinin doğum günündə Qarabağa budəfəki səfəri Baş Sərkərdə ənənəsinə və verdiyi sözə sadiqliyinin bariz nümunəsidir. Vədinə sadiq lider bir daha ona inanan, güvənən Azərbaycan xalqını əmin etdi ki, bundan sonra da eyni əzmkarlıqla, eyni qətiyyətlə ölkə maraqlarının keşiyində duracaq və heç vaxt indiki qədər güclü olmayan qüdrətli Azərbaycan daha böyük uğurlara, zəfərlərə imza atacaq.

---

# DAXİLİ İŞLƏR ORQANLARININ VƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ



**Əziz həmkarlar!**

***Yola saldığımız 2021-ci ildə cinayətkarlığa qarşı mübarizə, qanunçuluğun və hüquq qaydasının təmin edilməsi sahəsində funksiyalar digər dövlət orqanları ilə sıx qarşılıqlı əlaqədə layiqincə həyata keçirilmiş, sabitlik qorunub saxlanılmışdır. Möhkəm nizam-intizama, müasir infrastruktura və maddi-texniki bazaya malik daxili işlər orqanları və Daxili Qoşunlar xidməti tapşırıqların və işğaldan azad edilmiş ərazilərdə mühüm vəzifələrin icrasında vətənpərvərliyi və anda sadiqliyi ilə seçilmiş, bütövlükdə qarşıya qoyulmuş əsas hədəflərə nail olunmuşdur.***

***Ulu Öndərin müəyyənləşdirdiyi daxili və xarici siyasət kursunun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməsi, bütün sahələri əhatə edən sistemli islahatlar, xalqla Liderin sarsılmaz birliyi sayəsində əldə olunan bu və digər uğurlar, eyni zamanda şəxsi heyətin peşəkarlığının, vətəndaş məmnunluğunun təmin edilməsinə yönəlmiş davamlı səylərinin nəticəsi kimi xüsusi qeyd edilməlidir.***

***Xidmətdə fərqlənənlərin möhtərəm Prezident tərəfindən orden və medallara layiq görülməsi, habelə əməkdaşların və hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi barədə əhəmiyyətli qərarların qəbul edilməsi Zati-alilərinin şəxsi heyətin əməyinə verdiyi yüksək dəyərin növbəti əyani təsdiqi olmuşdur.***

***Əminəm ki, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi kimi məsul vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin ali etimadını doğruldacaqsınız.***

***Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə bütün şəxsi heyəti, hörmətli veteranlarımızı, vəzifə borcunu yerinə yetirərkən şəhid və həlak olmuş əməkdaşların və hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, xidmətdə yeni-yeni nailiyyətlər arzulayıram.***

**Bayramınız mübarək!**

***Vilayət Eyvazov,***
***Azərbaycan Respublikasının daxili işlər naziri,***
***general-polkovnik***

---

# MAGİSTR TƏHSİLLİ HƏMKARLARIMIZ

## *Daxili işlər naziri onlara rütbə verib, vəzifələrə təyin etdi*



Dekabrın 27-də daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında polis təhsili sahəsində əməkdaşlıq haqqında" protokola əsasən, 2019-2021-ci tədris ilində Türkiyə Milli Polis Akademiyasının Polis Rəisləri Təlim Mərkəzində magistr təhsilini başa vuraraq ölkəmizə qayıtmış 6 məzuna "polis leytenantı" xüsusi rütbəsi verilməklə müvafiq vəzifələrə təyin olunmaları ilə əlaqədar əmr imzalayıb.

Bu münasibətlə DİN-də keçirilən tədbirdə nazir, general-polkovnik Vilayət Eyvazov vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarının gərgin səyləri hesabına respublikamızda əmin-amanlığın yaradıldığını, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında ulu öndərimizin və möhtərəm Prezidentimizin qeyd etdikləri kimi, məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların dövlət başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini gənc zabitlərin nəzərlərinə çatdırıb.

Nazir V.Eyvazov bildirib ki, ölkəmizin, eləcə də qardaş Türkiyə DİN-in xüsusi ali təhsil müəssisələrinin məzunlarının vəzifələrə yerləşdirilməsi, ümumilikdə, gənc kadrların hazırlıq səviyyəsinin artırılması, onların peşəkarlığa, dövlətçiliyə, xidməti borca sədaqətə, işgüzarlığa görə vəzifədə irəli çəkilmələri, gənc əməkdaşlara lazımi diqqət və qayğı göstərilməsi DİN rəhbərliyinin daim nəzarətdə saxladığı məsələlərdəndir.

General-polkovnik Vilayət Eyvazov gənc zabitləri təbrik edərək iki qardaş ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olmasını məmnunluqla qeyd edib və bundan sonrakı çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, daim polis adını uca tutmalarını, bilik və təcrübələrini artırmalarını, öz üzərlərində işləmələrini, müasir informasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanmalarını, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

# MÜBARİZƏ APARILIR, MAARİFLƏNDİRMƏ DƏ ŞƏRTDİR

## Gəncləri zərərli vərdişlərdən qorumaq hər birimizin borcudur

**Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri zərərli vərdişlərdən, xüsusilə narkomaniyadan qorumaq məqsədilə maarifləndirmə tədbirlərini davam etdirirlər.**

Salyan Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Aşağı Kürkənd kənd tam orta məktəbində "Narkomaniyaya yox deyək!" mövzusunda keçirilən tədbirdə **RPŞ-nin rəisi, polis polkovniki Nəzər Əsgərov** ölkəmizdə narkomanlığa qarşı aparılan qətiyyətli mübarizədən danışaraq narkotik vasitələrdən istifadə edənlərin uğurlu gələcəyinin olmadığını bildirib.

Tovuz Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Alakol və Aşağı Quşçu kənd orta məktəblərində «Narkomaniyaya qarşı mübarizə və uşaqları zərərli vərdişlərdən qoruyaq» mövzusunda keçirilən maarifləndirmə tədbirində **RPŞ-nin rəisi, polis polkovniki Habil Əmraslanov,** pedaqoji heyət, eləcə də valideyn və şagirdlər iştirak ediblər.





Bəşəriyyətin ən ağrılı problemlərindən olan narkomaniyanın ictimai təhlükəlilik dərəcəsinin artdığını deyən polis polkovniki H.Əmraslanov narkomanlığın HİV virusuna, eləcə də QİÇS kimi sağalmaz və yoluxucu xəstəliklərə aparan ən yaxın yol olduğunu bildirib.

Neftçala rayonundakı E.Həbibov adına 4 saylı məktəbdə və M.Səfərov adına İnteqrasiya təlimli internat tipli gimnaziyasında "Ağ ölüm bəşəriyyətin bəlasıdır!", "Erkən nikaha yox deyək!" mövzularında çıxış edən polis əməkdaşları narkomaniyaya düçar olanların sağlam həyata qaytarılmasında hüquq mühafizə orqanları ilə yanaşı, cəmiyyətin hər bir üzvünün fəallıq göstərməsinin də vacibliyini vurğulayıblar. Tədbirdə həmçinin erkən nikahın qanunazidd olduğu, yeniyetmə vaxtlarında gənclərin, xüsusən qızların ailə qurmasının gələcəkdə onların fiziki və mənəvi sağlamlığına ciddi təhlükə törətdiyi qeyd edilib.



Saatlı rayonundakı C.Cabbarlı adına 3 saylı tam orta məktəbdə şagirdlər və pedeqoji heyətlə görüşən polis əməkdaşları narkotik qəbul etmək təklifinə aldanan gənclərin çox vaxt narkomaniyanın təhlükəliliyi haqqında məlumatlı olmamaları, qısa zamanda bəlanın əsirinə çevrildiklərini və bu üzdən də cinayətə meyilli olduqlarını diqqətə çatdırıblar.

Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecində "Narkomaniya - əsrin bəlası" mövzusunda keçirilən maarifləndirmə tədbirində isə narkomanlığın mənəvi və əxlaqi dəyərlərə böyük zərbə vurduğunu, narkotacirlərin məhz iradəsi zəif olan gəncləri tələyə saldığını deyən **Şirvan ŞPŞ-nin rəis müavini, polis mayoru Ramil Salayev** gənclərə diqqətli olmalarını, narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olanları gördükdə və ya hər hansı bir informasiya əldə etdikdə dərhal valideynlərinə, polis əməkdaşlarına məlumat vermələrini tövsiyə edib.

Polis Akademiyasının əməkdaşları da Xəzər rayonundakı 156 nömrəli tam orta məktəbdə anoloji tədbir keçiriblər. Son dövrlər internet resursları vasitəsilə narkotik vasitələrin satılmasının geniş yayılması barədə şagirdləri məlumatlandıran asayiş keşikçiləri onları "İnternetdən təhlükəsiz istifadə" mövzusunda maarifləndiriblər.

Tədbirlərdə narkotiklərin törətdiyi fəsadlarla bağlı videoçarxlar nümayiş etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Diqqət də var, qayğı da



**Masallı, Ağcabədi və Ağstafa Rayon Polis şöbələrinin** əməkdaşları Vətən müharibəsində şəhid olan igid oğullarımızın ailələrini və qazilərimizi ziyarət ediblər.

Şəhidlərin valideynləri ilə həmsöhbət olan polislər onların qayğıları ilə maraqlanıb, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində gətirdikləri sovqatları təqdim ediblər.

Görüşlər zamanı Vətən müharibəsində əldə etdiyimiz Qələbənin şəhidlərimizin, qazilərimizin və hazırda xidmətini davam etdirən mərd oğullarımızın sayəsində əldə edildiyi vurğulanıb.

Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə ölkə və Daxili İşlər Nazirliyinin bütün kollektivinə təşəkkür ediblər.

# BİZ HƏMRƏYİK...

## AZƏRBAYCANIMIZ ÜÇÜN!

Müstəqilliyimizin yaşı hələ heç bir qərinə də olmayıb. Amma əsrə bərabər yol keçmişik bu ötən illər ərzində. Dünyanın xəritəsində kiçik, gözündə isə çox böyüyük. Daha doğrusu, bizi parçalamamışdan, bölməmişdən öncə sərhədlərimiz günəşin batdığı yerdə idi.

Ağrılarımızı uğurlarımıza çevirmək üçün nələr yaşamadıq ki? Arasında qaldığımız "od"ların sayı "iki"dən çox idi…

Kökümüzü, milli kimliyimizi unutdurmaq üçün repressiyalarla, əzmimizi qırmaq üçün isə deportasiyalarla üzbəüz qoydular bizi. Elə etdilər ki, böyük Vətənin bu başından o başına səsimiz çatmadı. Tikanlı məftilləri bütövləşmək arzumuza əli silahlı gözətçi qoydular. Bəzən də içimizdəkilərin xəyanəti, hətta qardaşın-qardaşa güllə atması, bir-birinə qənim kəsilməsi ruhumuzu qılıncladı. Yenə də dırnağı ətdən, canı-candan ayıra bilmədilər.

Toparlandı bu millət.

İtirdiklərimizə sahib çıxmaq naminə "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!" şüarı ilə sonu qələbələrlə, uğurlarla dolu olan uzun, incə bir yoldayıq…

Əslində, ötən ilin noyabrında qarşıladıq biz yeni ili. Adı bəlli düşmənə də, onun sığındıqlarına da yerdə, göydə heç vaxt unuda bilmədikləri, ağrısını yüz illər sonra da hiss edəcəkləri acı yaşatdıq.

İllər sonra varlığımızı yenidən sübut etdik. Sübut etdik ki, həmrəylik meydanlarda birləşib tank üstünə getmək və azadlığına qovuşmaqdı. Həmrəylik "Heydər baba, xalqı bu bəladan qurtar",-deyib Naxçıvandan Bakıya könül körpüsü salıb Liderinə qucaq açmaqdı. Həmrəylik bir gecənin içində yüz minlərin toplanması və Horadizin azad edilməsidir. Həmrəylik Lələtəpədən səmalara ucalıb düşmənə göz dağı verən, mən tezliklə Xankəndində dalğalanacağam deyən üçrəngli bayraqdır. Həmrəylik Cünnütün azadlığıdır. Həmrəylik "Mən hər bir azərbaycanlının Prezidentiyəm!",-deyən Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz İlham Əliyevin dəmir yumruğuna çevrilib Qarabağı azadlığına qovuşdurmaqdır. Həmrəyliyimizin gücü və sevinci olan Yeni ili – 2022-ci ili Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Zəngilanda, Qubadlıda, Xudafərində, Hadrutda və Xocavənddə qarşılamaqdır. Gözün aydın Vətən, yeni gününüz, yeni iliniz-Azadlığınız mübarək doğma yurdlar!

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# SINAQDAN UĞURLA ÇIXIRLAR

**Təxminən iki il öncə dünyanı bürüyən COVID-19 pandemiyası bütün ölkələri qəflətən ağır sınaq qarşısında qoydu. Virus sərhədlərimizə çatdığı andan dövlətimiz onunla mübarizədə bütün imkanlarını səfərbər etdiyinə görə epidemioloji vəziyyət bugündək tam nəzarət altında saxlanılır. Bunda hər bir müvafiq dövlət qurumunun, o cümlədən asayiş keşikçilərinə yüksək tibbi xidmət göstərilməsini təmin edən DİN-in Tibb İdarəsinin danılmaz əməyi var.**

"Polis" olaraq, Tibb İdarəsinin qapısını döydük, pandemiya ilə bağlı suallarımızı idarənin **rəis müavini, tibb xidməti polkovniki Loğman Zeynalova** ünvanladıq.

O, qəzetimizə bildirdi ki, ölkəmizdə virusla mübarizə başlayan vaxtdan İdarəyə bilavasitə tabe olan Gigiyena-Epidemiologiya Mərkəzində PCR laboratoriyası quraşdırıldı və bu günədək laboratoriyada koronavirus xəstələrinin aşkar olunması üçün testlər götürülür. Laboratoriya müraciətlər əsasında mülki vətəndaşlara da xidmət göstərir.



Bu ilin fevral ayından isə COVID-19 virusuna qarşı polislərin vaksinləşməsi aparılır. İlkin olaraq Bakı şəhərində xidmət edən əməkdaşlarımız üçün İdarəyə bilavasitə tabe olan A.N.Heydarov adına Respublika Hospitalında, 1 və 2 saylı poliklinikalarda vaksinasiya prosesi başlayıb. Sonra isə DİN rəhbərliyinin göstərişinə uyğun olaraq, rayon polis idarə və şöbələrində, bundan əlavə, həm Daxili Qoşunların Bakı şəhərindəki, həm də regionlarda olan hərbi hissələrdə İdarənin tibbi briqadaları peyvəndlənməni həyata keçiriblər. Hazırda da birinci, ikinci və üçüncü – buster dozalar vurulur.

Virusa yoluxan xəstələrin müalicəsinin TƏBİB-in tibb müəssisələrində, modul tipli xəstəxanalarda aparıldığını deyən rəis müavini iki dəfə A.N.Heydarov adına Respublika Hospitalın digər xəstələri qəbul etmədiyini və yalnız daxili işlər orqanlarının virusa yoluxmuş əməkdaşlarının müalicəsilə məşğul olduğunu xatırlatdı. Onun sözlərinə görə, daxili işlər orqanlarının əməkdaşlarına yüksək tibbi xidmət göstərilməsini DİN rəhbərliyi daim diqqət mərkəzində saxlayır. İdarəyə hər gün həm yoluxan əməkdaşlar, həm də evdə stasionar müalicə alanlar barədə məlumatlar daxil olur. Bu xəstəliyi ağır keçirən əməkdaşların vəziyyətinə DİN rəhbərliyinin göstərişi və **Tibb İdarəsinin rəisi, tibb xidməti polkovniki Mahmud Yusifovun** nəzarəti altında, onların müalicə aldığı tibb müəssisəsinin, həmçinin xidmət etdiyi orqanın rəhbərliyilə mütəmadi əlaqə saxlanılır.

Rəis müavini işğaldan azad olunan ərazilərdə xidmət edən polis əməkdaşlarına göstərilən tibbi xidmətdən də danışdı. Qeyd etdi ki, istər koronavirus xəstəliyinin profilaktikası, istərsə də digər xəstəliklərlə əlaqədar zəruri dərman ləvazimatları azad olunan rayonlara regional ambulatoriyaların əməkdaşları ilə göndərilir. Qarabağda müəyyən polis postları var ki, təhlükəsizlik baxımından həmin ərazilərə girişə hələ tam icazə verilmir, bununla belə, imkan daxilində tibbi ləvazimatlar həmin postlara da çatdırılır.

Azad olunmuş ərazilərdə xidmət edən polis əməkdaşlarının vaksinasiyası da, qarşıya çıxan çətinliklərə baxmayaraq, diqqətdən kənar qalmır: "Daxili işlər orqanlarında vaksinasiya bizim İdarənin təşkilatçılığı ilə aparılır. Hospitalın və poliklinikaların həkimlərindən, tibb bacılarından ibarət yaradılan briqadalar bölgələrə ezam edilir, əməkdaşların müayinəsi, o cümlədən peyvənd olunmaları həyata keçirilir. Ancaq hansı rayonda regional həkim ambulatoriyamız varsa, oradakı tibb işçilərinin xidmətindən də istifadə olunur ".

Sonda müsahibimiz əməkdaşların hər il keçirilən profilaktik-dispanserizasiya məsələsinə toxundu. Onun sözlərinə görə, polis əməkdaşlarının dispanserizasiyası sərt karantin rejimində də dayandırılsa da, artıq bu ilin son 3 ayından başlayaraq müayinələr həyata keçirilir.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# KOMANDİRİN UĞURU

## Yüksək hazırlığın və məsuliyyətin nəticəsi qələbə olur




Moskvada dekabrın 16-da start götürən və 19-dək davam edən Pauerliftinq üzrə VII Dünya çempionatında 31 ölkəni, 5700 idmançı təmsil edib.

Turnirdə güc ikinövçülüyü, uzanaraq tədricən qaldırma, armlifting, streetlifting, biçepsə yük qaldırma və deadlifting (dartma) üzrə idmançılar güclərini sınayıblar.



Azərbaycan Pauerliftinq İdman Federasiyasının yığma komandası da çempionatda iştirak edib.

Prezident mükafatçısı, "Strongmen" Federasiyasının vitse-prezidenti, Rusiya Federasiyasının idman ustası, **Bakı şəhər BPİ DYPİ-yə bilavasitə tabe olan YPX Alayının komandiri, polis polkovniki Raif Süleymanov** millimizin heyətində qələbə uğrunda mübarizə aparıb.

Vaxtilə xidmətdə qolundan aldığı ağır xəsarətə baxmayaraq, R.Sülemanov 90 kiloqram çəki dərəcəsində deadlifting üzrə bütün rəqiblərinə möhkəm həyəcan yaşadıb. Hətta, Rusiya millisinin üzvü, rekordsmen Vladimir Jabin həmkarımız qarşısında aciz qalıb. Beləliklə, R.Süleymanov 290 kiloqram ştanqı yerdən qurşağa qaldırmaqla bu yarışda da fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq növbəti dəfə dünya çempionu olub.

**Redaksiyadan:** Sun Tzu "Müharibə sənəti" traktatında yazırdı: "Ordunun komandiri elə cəsarət nümunəsi göstərməlidir ki, tabeçiliyindəki əsgər də onu təkrarlamağa çalışsın".

DYPİ YPX Alayının komandiri R.Süleymanov 2001-ci ildə Keyptaunda (Afrika), 2011-ci ildə isə Florida ştatında dünya çempionu adını qazanıb. O, həm idmançı, həm də polis əməkdaşı kimi uğur əldə etmək üçün əzmlə çalışır. İnanırıq ki, dahi strateqin dediyi kimi, tabeçiliyindəki gənc həmkarlarımız da öz komandirlərinin uğurunu təkrar edərib, inamı və etimadı doğruldacaqlar.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# UŞAQLARIN YENİ İL SEVİNCİ



Daxili İşlər Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin 2 saylı uşaq bağçasında Dünya Azərbaycanlılarının Həmrəylik Günü, o cümlədən Yeni il münasibətilə bayram şənliyi keçirilib.

Bayram tədbirini giriş sözü ilə açan DİN 2 saylı bağçanın müdiri Sevinc Məmmədəliyeva yola saldığımız ilin Azərbaycan xalqı üçün düşərli olduğunu, onların sabitliyin, asayişin etibarlı qorunduğu

## Onların dünyaya sülh çağırışı həmrəylik nümunəsidir



ölkənin, qalib xalqın övladları kimi böyüdüyünü sevinc və qürur hissi ilə vurğulayaraq hər iki bayram münasibətilə iştirakçıları təbrik edib. Bağça müdiri, eyni zamanda, şənliyin əlamətdar bir günə - Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 60 illik yubileyinə təsadüf etdiyini də diqqətə çatdırıb.

"Yeni il" mahnısının sədaları altında zala daxil olan körpələr Həmrəylik Gününə və Yeni il aid müxtəlif musiqilər ifa edib, şeirlər söyləyiblər. Balacalar aktyorluq məharətləri ilə də tədbirə ayrıca rəng qatıblar.

Körpələrin "Şaxta Baba! Şaxta Baba!" şüarları ilə onları salamlayan Şaxta Baba sehrli çubuğu ilə şam ağacını işıqlandırıb. Tənbəl "panda"nın balacalarla rəqsi, məharətlərini göstərənlərə - şeir deyənlərə, gözəl rəqs edənlərə hədiyyələr təqdim etməsi şənliyi coşdurub.

***P.S. 1991-ci ilin 16 dekabrında ulu öndər Heydər Əliyevin dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etməsi xalqımızın birlik simvoludur. İllər sonra bu birlik dəmir yumruğa dönüb 30 illik işğala son qoydu.***

*Teymur Əlizadə,*
*polis mayoru*

# Qələm adamlarının təbriki

## Bu fikirlər polis-media münasibətlərinin dostluğa çevrildiyinin bariz nümunəsidir

Cəmiyyətə çağırışlarımız hər zaman maraq doğurub. Gündəmdə qalmaq üçün deyil, faydası toxunacaq fəaliyyətimizlə vətəndaşlardan əsas təmənnamız qanunlara riayət etməkdir.



Qaydaları pozmamaq, zərərli vərdişlərdən uzaq olmaq, vicdanlı, dürüst, Vətəninə və xalqına sevgi dolu bir ömür yaşamaq devizimizdir. Haqlı tənqidə hər zaman açığıq. Elə müxtəlif təşkilatların, o cümlədən media orqanlarının keçirdikləri sorğularda ictimaiyyətlə əlaqələrə xüsusi önəm verən, şəffaflıq prinsiplərinə riayət edən qurum kimi Daxili İşlər Nazirliyi ilk sıralarda olub. Bu, bundan sonra da belə olacaq.

Yeri gəlmişkən, ölkəmizin tanınmış media nümayəndələrinin, qəzet və sayt redaktorlarının Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ünvanımıza göndərdikləri təbrik məktublarındakı "Xalq üçün, xalqın rahatlığı üçün xalqla birlikdədir Azərbaycan Polisi" fikri bizi üzümüzə gələn ildə də daha böyük nailiyyətlər əldə etməyə səsləyir.

**"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev-** Vətən savaşında ordumuzla birlikdə DİN Daxili Qoşunlarının hərbi qulluqçuları da düşmənə qan uddurdular. Arxa cəbhədə isə polislərimiz həm cinayətkarlıqla mübarizə apardılar, həm də asayişi qorudular. Bu gün işğaldan azad olunmuş torpaqlarımızda da polisimiz xidmətini davam etdirir. Azərbaycan Polisini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il



münasibətlə təbrik edir, çətin və şərəfli xidmətlərində uğurlar arzulayıram.

**Yazıçı jurnalist Mahir Qabiloğlu -** İki ilə yaxındır ki, davam edən COVID-19 pandemiyası ilə polislər də həkimlərlə bərabər mübarizə aparırlar. Xidmətlərini, əziyyətlərini danmaq olmaz. Bizim sağlamlığımızı öz sağlamlıqları bahasına qoruyurlar. Üzümüzə gələn yeni il münasibətilə dostlarımızı təbrik edirəm.

**Jurnalist Nigar İsfəndiyarqızı -** Dünyada tüğyan edən pandemiya, 44 gün davam edən Vətən savaşı, gənclərimizi uçuruma aparan narkotik vasitələrlə mübarizə polisin işini daha da ağırlaşdırdı. Buna baxmayaraq, onlar hər bir çətinliyin öhdəsindən bacarıqla, təmkinlə gəlməyə çalışır, dözüm nümayiş etdirirlər. Azərbaycan Polisi bizim qürur və güvənc yerimizdir.

**Jurnalist Jalə Mütəllimova -** Polisin köməyinə hər zaman ehtiyac duyuruq. O, bizə təhlükədən daha yaxındır. Polis həm də xilaskardır. Elə buna görədir ki, harda olmağımıza baxmayaraq ailəmizdən, evimizdən nigaran qalmırıq. Vətəndaşa layiqli xidmət dövlətə və dövlətçiliyə xidmətdir.

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid -** Bu gün torpaqlarımız artıq düşmən tapdağından azad olunub və



orada quruculuq-abadlıq işləri gedir. Doğma yurdlarımızda asayişi qoruyan, əsgərimizə dayaq olan, təhlükələri göz önünə alaraq ayıq-sayıq xidmət edən Azərbaycan Polisinə eşq olsun!

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# UĞURLARLA hədəflərə doğru

Dünyanın ən mötəbər idman arenalarını fəth edənlərin sırasında DİN İdman Cəmiyyətinin yetirmələrinin, o cümlədən həmkarlarımızın olması qürurvericidir.

Uzun sürən pandemiya gündəlik həyatımıza öz "düzəlişlərini" edəndən sonra, bu ümumbəşəri bəla beynəlxalq yarışların da keçirilməsinə təsirsiz ötüşmədi. Lakin tarixə öz möhürünü vuran bu il böyük hadisələrlə, o cümlədən ölkəmizin idman uğurları ilə yadda qaldı.

2021-ci il ərzində daxili işlər orqanlarında xidmət edən 70-ə yaxın əməkdaş tərəfindən qazanılmış 25 medaldan 23-ü ölkənin milli komandalarının tərkibində beynəlxalq arenalarda, Avropa və Dünya çempionatlarında əldə olunmuşdur. Ümümiyyətlə, cari ilin müvafiq dövrü ərzində DİN-in İdman Cəmiyyətinin təmsilçiləri tərəfindən ölkə və beynəlxalq miqyaslı yarışlarda qazanılan 72 medaldan 20-si qızıl, 20-si gümüş, 32-si bürüncdür. 12 medal yeniyetmələrin, 16 medal gənclərin, 44 medal isə böyüklərin payına düşüb. Medallardan 41-i beynəlxalq miqyaslı, 31-i isə respublika birincilik və çempionatlarında qazanılmışdır.

Ümüd edirik ki, növbəti ildə də DİN İdman Cəmiyyətinin yetirmələri, o cümlədən idmançı həmkarlarımız daha böyük uğurlara imza atacaq, idman ölkəsi kimi qazandığımız imici daha da gücləndirəcəklər.

# Qızıla bərabər gümüş...

## Həmkarımız bir yarışdan iki medalla qayıdıb

DİN BMİ-nin Azərbaycan Televiziya və Radio verilişləri QSC-nin mühafizəsi üzrə mühafizə şöbəsinin əməkdaşı, polis serjantı Roman Əhmədov bugünlərdə Moskvada keçirilən pauerliftinq üzrə dünya çempionatında illərlə çəkdiyi əziyyətin, gərgin məşqlərinin sevincini yaşayıb.




O, sözügedən çempionatda 82,5 çəki dərəcəsində (open) versiyasında dünyanın ən güclü 17 atleti ilə gücünü sınayıb. İki hərəkətin cəmində 260 kiloqram ştanqı yerdən qurşağa qədər, sinədən isə 130 kiloqram qaldıraraq, toplamda 390 kiloqram nəticə göstərməklə, aktivinə iki gümüş medal yazdırıb. Bu nəticə ilə də dünya 2-cisi olub.

Qeyd edək ki, həmkarımız 2018 və 2019-cu illərdə NAP üzrə Soçidə - Avropa, 2019-cu ildə isə WPC üzrə Finlandiyada dünya çempionu adını qazanıb.

"Polis"in suallarını cavablandıran Azərbaycan Televiziya və Radio verilişləri QSC-nin mühafizəsi üzrə mühafizə şöbəsinin rəhbərliyi onun idmanda olduğu kimi xidmətdə də özünü doğrultduğunu qeyd edib. **Şöbənin rəis müavini, polis mayoru Nicat Məmmədzadə, bölük komandiri, polis baş leytenantı Vüsal Piriyev** məsuliyyəti və təvəzökarlığı ilə gənclərə örnək olan R.Əhmədovun bu uğurunun sağlam kollektivin və əməkdaşların fiziki hazırlığa, idmana verdikləri önəmin bariz nümunəsi olduğunu vurğulayıblar.

*R.Vəliyev,*
*polis baş leytenantı*

# “QARDAŞ”ın etibarı




Sabunçu Rayon Polis İdarəsinin İstintaq Şöbəsinin əməkdaşları etibardan sui-istifadə etməklə özgə əmlakını ələ keçirərək vətəndaşa xeyli miqdarda maddi ziyan vuran şəxsi saxlayıblar.

**Şöbənin rəisi, polis polkovnik-leytenantı Tural Hacıyevin** sözlərinə görə, təqsirləndirilən şəxsə qanunvericiliyin tələbləri izah edilməklə profilaktiki söhbət aparılıb və o, törətdiyi əməldən peşmançılıq hissi keçirdiyini etiraf edib. Şöbə tərəfindən vətəndaşa dəymiş maddi ziyanın tam ödətdirilməsi təmin olunub.

Faktla bağlı “Polis”ə danışan T.Hacıyev bildirib ki, Nailə Rüstəmovanı himayəsinə götürərək müalicə olunmasında, problemlərinin həllində köməklik göstərəcəyini yalandan vəd verən Almaniya vətəndaşı olan və orada yaşayan qardaşı Nazim Rüstəmov valideynlərindən miras qalmış, ümumilikdə 44 min manat dəyərində olan 2 brilyant qaşlı üzüyü, tort götürmək üçün qızıldan hazırlanmış beli, brilyant qaşlı bir cüt sırğanı, bir sepi və klonu guya daha etibarlı saxlamaq məqsədilə ona verməyi, həmçinin yaşadığı mənzili qızı Əminənin adına sənədləşdirməyi də bacısına məsləhət görüb. Qardaşının səmimiyyətinə inanan Nailə qızıl-zinət əşyalarını ona verib. Bir müddət sonra qızıllarının bir qismini geri istəyəndə Nazimin sərt təpkisi ilə üzləşib. Nazim ona bir daha zəng etməməyi, bezdirməməyi, eləcə də qızıllar arasında pay bölgüsü aparacağını bildirib. Qardaşı tərəfindən aldadılaraq çarəsiz duruma düşən Nailə polisə üz tutub.

İşi araşdıran **Sabunçu RPİ İŞ-nin müstəntiqi, polis mayoru Fərid Soltanlı** Nazim Rüstəmova əvvəlcədən razılaşdığı və üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyinə, nəticədə zərərçəkmiş şəxsə küllü miqdarda maddi ziyan vurduğuna görə mövcud qanunvericiliklə məsuliyyət daşıdığını izah etdikdən sonra qardaş bacısına qızılları qaytarmalı olub.

*Teymur Əlizadə, polis mayoru*

# Həyatını təhlükəyə atanlar

## *Xəbərdarlıqlar nəticə vermir, cəzalar sərtləşdirilməlidir*

Cəbrayıl Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun inzibati ərazisində yaradılmış nəzarət postlarında aparılan yoxlamalar zamanı bir neçə şəxsdən qanunsuz olaraq əldə edilən müxtəlif növ silah-sursat götürülüb.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, cari il ərzində Cəbrayıl RPŞ-nin əməkdaşlarının keçirdikləri nəzarət tədbirləri ilə qanunsuz olaraq silah-sursat əldə edən şəxslər müəyyən edilib. Həmin şəxslərin barələrində qanunamüvafiq tədbirlər görülüb. Aşkarlanan 1 avtomat, 2 qumbara, 4 minaatan mərmisinə məxsus başlıq, 1 nişangah qurğusu, 1 sandıq və 1749 müxtəlif çaplı partonlar aidiyyəti üzrə təhvil verilib.

❖❖❖

Xocavənd RPŞ-nin əməkdaşları tərəfindən keçirilmiş tədbirlərlə rayonun Böyük Tağlar kəndi ərazisindəki nəzarət postunda “Mersedes” markalı yük avtomobilinə “saxla” işarəsi verilib. Yoxlama aparılarkən sürücü, Qazax rayon sakini Məzahir Abdullayevin rayon ərazisinə daxil olmaq üçün müvafiq icazəsinin olmadığı müəyyən edilib. Nəqliyyat vasitəsinə baxış keçirilən zaman isə çəkisi 2 tona yaxın olan dəmir qalıqları aşkarlanıb.

Hazırda faktla bağlı Xocavənd RPŞ-də araşdırmalar davam etdirilir.

*Aslan Qiyaslı, polis baş leytenantı*

# Yolda qalmadılar...

## *Yol polisi sürücülərin köməyinə çatdı*



Bir neçə gün öncə paytaxt ərazisində o qədər də hiss olunmayan hava şəraiti rayona səfər edənlərə əməlli-başlı çətinliklər yaradıb. Yağan güclü qar və şaxtalı hava yolların buz bağlaması ilə nəticələnib. Bunu nəzərə alan yol polisi qabaqlayıcı profilaktik tədbirlər keçirməklə bir çox xoşagəlməz hadisələrin qarşısını alıb.

DİN Mətbuat Xidmətinin Quba regional qrupundan verilən məlumata görə, Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları avtomobillərin təhlükəsiz hərəkətini təmin edib, eləcə də yolları keçməkdə çətinlik çəkən piyadalara köməklik göstəriblər. Asayiş keşikçiləri yolların qardan təmizlənməsi, buz bağlamış ərazilərə qum və duzun səpilməsinin təşkili prosesində də fəallıq nümayiş etdiriblər. Yolayrıclarında nəqliyyat sıxlığının qarşısını yüksək peşəkarlıqla alan yol polisi əməkdaşları, eyni zamanda qış təkərləri və texniki cəhətdən yağıntılı hava şəraitinə hazır olmayan nəqliyyat vasitələrinin sahiblərinə qarlı-buzlu havada yola çıxmamağı tövsiyə ediblər.

# POLİS ƏMƏLİYYAT KEÇİRİB

### *Yüksək səsyayıcı qabiliyyətə malik partlayıcı və tezalışan məmulatların qeyri-qanuni dövriyyəsinin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir*






Polis əməkdaşları tərəfindən partlayıcı, tezalışan maddələrin, pirotexniki vasitələrin paytaxt ərazisində topdan satışının qarşısının alınması istiqamətində geniş miqyaslı tədbir keçirilib. Qaradağ rayonunda yerləşən “Sədərək” ticarət mərkəzində həyata keçirilən əməliyyat zamanı yüksək səsyayıcı qabiliyyətə malik pirotexniki maddələrin gizli şəkildə satışını təşkil edən paytaxt sakinləri Rakif Mirzəyev, oğlu Aqil Mirzəyev və Sahib Salahlı saxlanılıblar. Bu şəxslərin ticarət mərkəzində yerləşən obyektlərinə, avtomobillərinə, həmçinin anbar yeri kimi istifadə etdikləri saxlanc yerinə qanunvericiliklə nəzərdə tutulmuş qaydada baxış keçirilən zaman ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən külli miqdarda pirotexniki vasitələr aşkar edilib.

Qeyd edək ki, Rakif Mirzəyev, oğlu Aqil paytaxt ərazisinə bu maddələrin paylanılmasını və satışını təşkil edən əsas şəxslərdən biri olublar. Onlar ifadələrində partlayıcı, tezalışan maddələrin, pirotexniki vasitələrin satışı ilə məşğul olduqlarını etiraf ediblər. Faktla bağlı hər 3 şəxs barəsində araşdırmalar aparılır. Dəstənin digər üzvlərinin saxlanılması istiqamətində tədbirlər davam etdirilir.

Nəzərinizə çatdıraq ki, bu şəxslərdən aşkar olunan pirotexniki vasitələrin qara bazarda satış qiyməti 200 min manata yaxın olub.

Daxili İşlər Nazirliyi əhalinin nəzərinə çatdırır ki, pirotexniki, eləcə də yüksək səsyayıcı qabiliyyətə malik partlayıcı və tezalışan məmulatların satışını qanunsuz təşkil edən şəxslərə qarşı mübarizə tədbirləri bundan sonra da qətiyyətlə davam etdiriləcək.




**Xətai RPİ-nin 34-cü Polis Şöbəsinə** dekabrın 25-də rayon ərazisində yerləşən şirkətlərdən birinin ofisindən 8 min 600 manatın oğurlanması barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən Bakı şəhər sakinləri M.Bağırov və M.Əsgərov müəyyən edilərək saxlanılmışlar.

◆◆◆

**Baş Dövlət Yol Polisi İdarəsi və Hacıqabul Rayon Polis Şöbəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında birgə keçirdikləri əməliyyat tədbiri nəticəsində dekabrın 22-də Abşeron rayon sakini, əvvəllər məhkum olunmuş M.Həsənovun idarə etdiyi “KİA” markalı avtomobil Hacıqabul rayonunun Növhani qəsəbəsi ərazisində yerləşən postda saxlanılmışdır. Polis əməkdaşları tərəfindən avtomobilə baxış zamanı oradan lüləsi kəsilmiş ov tüfəngi, 3 ədəd patron, 1 ədəd “Blow Nagnum” markalı idman tapançası, ona aid daraq, 1 ədəd patron, beşbarmaq və ov bıçağı aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Lənkəran Şəhər - Rayon Polis Şöbəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində şəhər sakini E.Ağacanov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilmişdir. Polis əməkdaşları tərəfindən narkotik vasitəni ona satmaqda şübhəli bilinən həmyerlisi F.Əlizadə də müəyyən edilərək saxlanılmış, ondan da heroin aşkar edilmişdir.

Davam etdirilən tədbirlərlə F.Əlizadənin yaşadığı evə baxış zamanı oradan əlavə 4 kiloqram 20 qram heroin və elektron tərəzi götürülmüşdür.

# Toyların monitorinqi

22-28 dekabr tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 2140 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 2114 şadlıq sarayında, 26 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 29 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi əsasən cərimə olunub;
- 2 şadlıq sarayının sahibi barəsində Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb;
- 481 nəfər “COVID-19” pasportu olmadığına görə şənliyə buraxılmayıb.

# Koronavirus xəstələri saxlanılıb



Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Dekabrın 22-dən 28-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 24 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 6 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1-ci (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov*

## Dekabr ayının 22-dən 28-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 258 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 32 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 335, o cümlədən borclu şəxs qismində axtarışda olan 257 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 7 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 7 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 95 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik